15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günüdür!

23 (1380) 12-18 iyun 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# GÖMRÜK XİDMƏTİNDƏ ƏN MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ HƏYATA KEÇİRİLİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak edib.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov dövlətimizin başçısına yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, ümumi sahəsi 25 min kvadratmetr olan 18 mərtəbəli binada komitənin struktur bölmələrinin əməkdaşlarının yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb.

Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının layihə-quraşdırma işlərində maksimum səviyyədə ən müasir texnologiyalardan istifadə olunub. Bütün layihəçilər, mühəndislər və inşaatçılar Azərbaycan vətəndaşlarıdır və ölkə universitetlərinin məzunlarıdırlar.

Buradakı Hədəf Mərkəzində ölkə üzrə yük nəqliyyat vasitələrinin hərəkəti elektron xəritədə müşahidə olunur. Eyni zamanda, Xəzər dənizində gəmilərə gömrük nəzarəti və gömrük postlarına real vaxt rejimində videomüşahidə həyata keçirilir. Binada süni intellekt əsaslı risk idarəetmə sistemi və informasiya texnologiyaları infrastrukturu yaradılıb. Həmçinin burada kibertəhdidlərin kəşfiyyatı və qarşısının alınması ilə bağlı xüsusi avadanlıq yerləşdirilib. Ümumilikdə yeni binada informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq olunub. Bu sistemlər mövcud və gələcək xidmətlərin artırılmasını nəzərdə tutub.

Dövlətimizin başçısı gömrük orqanları tərəfindən ayrı-ayrı vaxtlarda müsadirə olunmuş tarixi-mədəni əşyalardan ibarət muzeyə baxıb. Burada eramızdan əvvəl birinci minilliklərdən XX əsrin 50-ci illərinədək dünya ölkələrinin tarixini əhatə edən eksponatlar sərgilənir.

Qeyd edək ki, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üzərində yerləşən, son illərdə həyata keçirilən irimiqyaslı layihələr hesabına beynəlxalq ticarətin asan və sürətli şəkildə reallaşdırılmasında ölkəmizin əhəmiyyətli rolu nəzərə alınmaqla gömrük işinin müasir səviyyədə təşkili, bu sahədə xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə gömrük sisteminin inkişafı istiqamətində həyata keçirilən islahatlar hesabına indi ölkəmizin gömrük xidmətində ən müasir texnologiyaların, qabaqcıl təcrübənin, elmi əsaslı layihələrin, rəqəmsal həllərin tətbiqi həyata keçirilir. Reallaşdırılan qabaqcıl texnoloji həllər gömrük əməliyyatlarının asanlaşdırılması və sürətləndirilməsi, iqtisadi təhlükəsizliyin daha etibarlı təmin olunması ilə yanaşı, şəffaflığın artırılmasına, gömrük-biznes əməkdaşlığının qarşılıqlı etimad əsasında gücləndirilməsinə, xidmət səviyyəsinin yüksəldilməsinə əlavə imkanlar yaradıb.

## “Azad edilmiş ərazilər Azərbaycana investisiyaların artırılması üçün imkanlar yaradır”

“Azərbaycanın azad edilmiş əraziləri - Qarabağ və Şərqi Zəngəzur - ölkəyə investisiyalar üçün yeni imkanlar yaradır”.

Bu barədə iyunun 10-da IV Daşkənd İnvestisiya Forumunun açılışında çıxış edən Azərbaycan Baş naziri Əli Əsədov bəyan edib. Onun sözlərinə görə, Qarabağda hazırda genişmiqyaslı tikinti-bərpa işləri aparılır.




*”Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranan yeni reallıqları nəzərə alsaq investisiya əməkdaşlığı üçün yaxşı perspektivlər açılır. Bu gün həmin torpaqlarda biz genişmiqyaslı bərpa işləri aparırıq. Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəbin və Kurmanqazı adına Yaradıcılıq Mərkəzinin açılışını xüsusi qeyd etmək istəyirəm. Bunlar Özbəkistan və Qazaxıstan prezidentlərinin hədiyyəsi kimi tikilib”*, - o əlavə edib.

Ə.Əsədov qeyd edib ki, Azərbaycan xalqı bu hədiyyələrə görə Özbəkistan və Qazaxıstana minnətdardır.

## Elektroenergetika sektorunda sabit tarif tətbiq olunacaq



Azərbaycanda elektroenergetika sektorunda sabit tarifin tətbiq olunması nəzərdə tutulur.

Bu, “Elektroenergetika haqqında” qanun layihəsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Sənəd Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında müzakirəyə çıxarılıb.

Beynəlxalq təcrübədə elektrik enerjisinin tarif və qiymətlərinin tənzimlənməsi zamanı sabit tarifin tətbiqi halları mövcuddur. Sabit tarifin əsas mahiyyəti şəbəkəyə qoşulan istehlakçıların sabit xərc şəklində aylıq müəyyən vəsait ödəməsindən ibarətdir. Sabit tarif istehlak miqdarı ilə bağlı deyil, istehlakçı kateqoriyasından asılı olmayaraq tətbiq edilir və paylayıcı sistem operatorunun müəyyən xərclərinin qarşılanması üçün istifadə olunur.

Qanun layihəsi sabit tarifi elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi kimi təsbit edir.

Qanun layihəsində həmçinin sabit tarifin tətbiqi ilə bağlı elektrik enerjisi təchizatçısının və istehlakçının hüquq və vəzifələri, eləcə də sabit tarifin tətbiqindən irəli gələn məsələlər tənzimlənib.



# Azərbaycanda daxili audit: inkişaf tarixi və mövcud durum



*Zaur Almazov, Azərbaycan Respublikası Auditorlar Palatasının Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri*

Bazar iqtisadiyyatının inkişafının müasir mərhələsində daxili audit təsərrüfat subyektlərinin idarə edilməsi sisteminin mühüm tərkib hissəsidir.

Daxili audit müəssisə və təşkilatda risklərin idarə olunması, nəzarət və korporativ idarəetmə proseslərinin qiymətləndirilməsi və səmərəliliyinin yüksəldilməsi məqsədlərinə sistemli və ardıcıl yanaşmanı təmin edir, maliyyə-təsərrüfat fəaliyyətində pozuntuların aşkara çıxarılması, qeydə alınması və aradan qaldırılmasına nəzarətin həyata keçirilməsi ilə yanaşı, aşkar edilmiş kənarlaşmaların səbəb-nəticə əlaqələrini müəyyənləşdirməklə, yoxlanılan obyektdə (iş sahəsində) fəaliyyətin mövcud vəziyyətini yaxşılaşdırmağa dair konkret təklif və tövsiyələrin işlənib hazırlanmasına imkan yaradır.

Bazar münasibətlərinə əsaslanan Azərbaycan iqtisadiyyatında aparılan islahatlar çərçivəsində maliyyə nəzarəti sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması zərurəti və bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlər auditin əsas qollarından biri olan daxili auditin ölkəmizdə təbliğinə, yayılmasına və tətbiqinə rəvac vermişdir.

Daxili audit sadəcə nəzarət deyil, idarəetmənin əsas dayağıdır. Müasir dövrdə qurumların uğurlu fəaliyyətinin əsas göstəricilərindən biri şəffaflıq və hesabatlılıqdır. Bu prinsiplərin reallaşmasında isə daxili auditin rolu danılmazdır. Daxili audit yalnız səhvləri aşkarlayan yox, həm də risklərin önlənməsinə, qərarların optimallaşdırılmasına və vəsaitlərin səmərəli idarə olunmasına xidmət edən strateji idarəetmə alətidir.

Azərbaycanda bu sahə uzun illər "maliyyə yoxlaması" anlayışı ilə eyniləşdirilsə də, son onilliklərdə baş verən institusional və qanunvericilik dəyişiklikləri daxili auditin statusunu və əhatə dairəsini əhəmiyyətli dərəcədə dəyişib. Bu məqalədə ölkəmizdə daxili auditin keçdiyi tarixi mərhələlərə, mövcud vəziyyətinə və gələcək inkişaf istiqamətlərinə nəzər salacağıq.

***İnkişaf tarixi: Yoxlamadan auditə doğru yol***

**1. İlkin mərhələ – maliyyə nəzarəti funksiyası (1990-2004)**

Azərbaycan müstəqillik qazandıqdan sonra iqtisadi idarəetmə sistemində köklü dəyişikliklərə start verildi. Lakin ilk illərdə daxili nəzarət sistemi əsasən klassik yoxlamalara əsaslanırdı. Audit funksiyası hələ tam formalaşmamışdı, sistematiklik və planlaşdırma zəif idi. Daxili yoxlamalar daha çox xərclərin qanuniliyinin yoxlanması ilə məhdudlaşırdı.

**2. Normativ əsasların formalaşması (2004-2007)**

Dünya iqtisadiyyatına uğurla inteqrasiya edən Azərbaycanda daxili auditin tətbiqi zərurəti ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramında (2004-2006-cı illər)» əksini tapmış, 2007-ci il 28 iyul tarixli sərəncamla təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya»da isə daha da inkişaf etdirilmişdir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasətdə varislik prinsiplərinə uyğun olaraq, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş və 2007-ci il 22 may tarixdən qüvvəyə minmiş «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununda mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq ölkə ərazisində fəaliyyət göstərən və məcburi auditin obyekti olan təsərrüfat subyektlərində daxili auditin yaradılması tələb olunur.

**3. Daxili auditin təşəkkül tapması (2007-2015)**

2007-ci il Azərbaycanda daxili auditin inkişafında dönüş nöqtəsi oldu. Həmin il Nazirlər Kabineti tərəfindən "Dövlət orqanlarında daxili auditin aparılması Qaydaları" təsdiqləndi. Bu qərarla dövlət sektorunda daxili auditin hüquqi və metodoloji çərçivəsi müəyyən olundu. Bu mərhələdə bir sıra dövlət qurumlarında daxili audit strukturları yaradıldı, audit planlaması və hesabatlılıq sistemləri tətbiq olunmağa başlandı.

Daxili audit sahəsində normativ bazanın daha da möhkəmləndirilməsi məqsədilə 2007-ci ildə "Daxili Audit haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunla daxili auditin hüquqi statusu, prinsipləri, məqsədləri və həyata keçirilmə mexanizmləri ətraflı şəkildə tənzimləndi. Qanun həm dövlət, həm də qeyri-dövlət sektorlarında daxili audit fəaliyyətinin təşkili üçün vahid normativ baza yaratdı və bu sahədə beynəlxalq təcrübəyə uyğun hüquqi çərçivənin formalaşmasına imkan verdi.

**4. Strateji yanaşmaya keçid dövrü (2015-ci ildən indiyədək)**

Son illərdə Azərbaycan dövləti maliyyə idarəetməsində səmərəliliyin artırılmasını prioritet kimi müəyyən edib. Bu da daxili auditin statusunu yüksəldib. Daxili audit artıq yalnız uyğunsuzluqların aşkarlanması yox, həm də risklərin dəyərləndirilməsi, nəzarət sistemlərinin qiymətləndirilməsi və strateji qərarların dəstəklənməsi funksiyalarını yerinə yetirir.

Mövcud vəziyyət: nailiyyətlər və problemlər paralel addımlayır.

**Nailiyyətlər:**

- ***Audit strukturlarının formalaşması: Dövlət qurumlarının əksəriyyətində daxili audit xidmətləri fəaliyyət göstərir.***
- ***Planlaşdırma və hesabatlılıq: İllik və rüblük planlarla fəaliyyət göstərən audit bölmələri fəaliyyətlərini sistemli şəkildə aparır.***
- ***Risk əsaslı yanaşmanın tətbiqi: Audit planlamasında risklərin təhlili aparılır.***

**Əsas problemlər:**

***1. Kadr çatışmazlığı: Daxili auditorların bir çoxu beynəlxalq sertifikatlara (CIA, CISA) malik deyil.***
***2. Texnologiyadan geridə qalma: Elektron audit platformaları, data analitikası, rəqəmsal nəzarət alətləri hələdə geniş yayılmayıb.***
***3. Özəl sektorda tətbiqin zəifliyi: Daxili audit yalnız iri korporasiyalarda tətbiq olunur. KOB-lar (kiçik və orta biznes) bu sahəni hələ də önəmsəmir.***

**Beynəlxalq təcrübə ilə müqayisə**

Beynəlxalq praktikada daxili audit fəaliyyətinin əsasını Beynəlxalq Daxili Auditorlar İnstitutunun (IIA) müəyyən etdiyi standartlar təşkil edir. Qərb ölkələrində auditorlar birbaşa audit komitələrinə hesabat verir və onların müstəqilliyi təmin olunur.

Daxili audit Azərbaycanda son onilliklərdə nəzərəçarpacaq inkişaf yolu keçmişdir. Lakin hələ də bu sahənin institusional, texnoloji və kadr potensialı tam şəkildə formalaşmayıb. Əgər bu sahəyə strateji yanaşma ilə yanaşılsa, daxili audit təkcə maliyyə nəzarətinin deyil, həm də uğurlu idarəetmənin, şəffaflığın və davamlı inkişafın əsas sütunlarından birinə çevrilə bilər.

Müasir vəziyyətdə Azərbaycanda iqtisadiyyatın idarə olunmasının bazar iqtisadiyyatı tələbləri çərçivəsində qurulması, həyata keçirilən islahatlar, sahibkarlıq mühitinin yaranması sahəsində görülən işlərlə bağlı olaraq mühasibat (maliyyə) nəzarətinin və daxili auditin önəmi daha da artır. Bu səbəbdən dövlət vəsaitlərinin xərcləri və iqtisadi subyektlərin idarə edilməsi sisteminin indiki dövrün tələblər səviyyəsində qurulması, var olan təsərrüfat və maliyyə ehtiyatlarından istifadənin faydalılığının artırılması, dövlət xərclərinin Səmərəli və şəffaf mexanizminin yaradılması daxili auditin iqtisadiyyatın idarə olunmasında böyük əhəmiyyət kəsb etməsini daha da artırır. Respublikamızın maliyyə təsisatlarının dünya kapital öhdəliklərinə aktiv şəkildə daxil olması, digər ölkələrin investorlarının Azərbaycanın iqtisadiyyatına marağının getdikcə artması, var olan daxili audit sisteminin beynəlxalq standartlara uyğun olaraq yaradılması respublikamızda mühasibat uçotu və daxili audit nəzarəti sisteminin təkmilləşdirmə işlərinin aparılması önəmini daha da artırır. Azərbaycanda maliyyə və iqtisadi idarəetmədə nəzarətin neytral mühitini yaratmaq, korrupsiya və maliyyə pozuntularının qarşısını almaq, hər bir maliyyə təsərrüfat fəaliyyəti haqqında qərəzsiz və obyektiv informasiya əldə etmək və xarici iqtisadi əlaqələrimizi daha da inkişaf elətdirmək üçün real imkanlar yaranır. Müasir dövrdə müəssisə və təşkilatlarda maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı maliyyə-mühasibat və daxili audit nəzarətinin və onların prinsiplərinin daha da inkişaf etdirilməsi çox mühümdür.

# Azərbaycan Özbəkistanı Orta dəhlizin imkanlarından daha fəal istifadəyə dəvət edib



Bu barədə Daşkənddə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovla görüşündə bildirilib. Görüşdə nəqliyyat-tranzit sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib. İki ölkə arasında tranzit daşımalarının 2024-cü ildə 18%-dən çox artdığı bildirilib. Orta dəhlizin əhəmiyyəti vurğulanaraq Özbəkistan tərəfi bu dəhlizin imkanlarından daha fəal istifadə etməyə dəvət edilib.

Bununla yanaşı, gəmiqayırma sahəsində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Ticarət-iqtisadi əlaqələrin inkişaf dinamikası yüksək qiymətləndirilib. Bildirilib ki, 2024-cü ildə qarşılıqlı ticarət 41% artıb. Ötən ilin eyni dövrü ili müqayisədə cari ilin birinci rübündə ticarət dövriyyəsi üç dəfəyə yaxın çox olub.

# Azərbaycanda aktiv ƏDV ödəyicilərinin sayı 5 faizə yaxın artıb

1 iyun 2025-ci il tarixə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 1,4 faiz artaraq 818,5 min, aktiv ƏDV ödəyicilərinin sayı isə 4,8 faiz artaraq 55,3 min təşkil edib.

Bu barədə Dövlət Vergi Xidməti məlumat yayıb.

Qeyd edilib ki, həmin tarixə aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 3,8 faiz artıb və 225,7 min olub. Naxçıvanda aktiv vergi ödəyicilərinin sayı 15,5 faiz artıb. Naxçıvan Muxtar Respublikasında 1 iyun 2025-ci il tarixinə aktiv vergi ödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 15,5 faiz artaraq 21 min 83 olub. Hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 13,6 faiz artıb və 575 təşkil edib. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə 6,1 faiz artaraq 6 min 60 olub.

# Dövlət büdcəsində 3,4 milyard manat artıqlıq yaranıb



Yanvar-may aylarında dövlət büdcəsinin gəlirləri proqnozdan 3,9 faiz çox olub.

2025-ci ilin yanvar-may aylarında dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb, xərclərlə əlaqədar 550 mindən çox ödəniş tapşırığı yerinə yetirilib.

Bu, Maliyyə Nazirliyinin yaydığı məlumatda bildirilir.

Qeyd edilib ki, cari ilin yanvar-may ayları üzrə dövlət büdcəsinin gəlirləri 17 milyard 138 milyon manat təşkil edib ki, bu da 5 aylıq proqnozdan 639,7 milyon manat və ya 3,9 faiz çoxdur.

Gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 7 milyard 843,3 milyon manat təşkil edərək proqnozdan 423 milyon manat və ya 5,7 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 2 milyard 589,5 milyon manat təşkil edərək proqnozdan 2,5 milyon manat və ya 0,1 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 18 milyon manat təşkil edərək proqnozdan 3,7 milyon manat və ya 25,9 faiz, Dövlət Neft Fondundan transfert isə 6 milyard 33,8 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz və sair daxilolmalar isə 398,4 milyon manat təşkil edərək proqnozdan 297,2 milyon manat və ya 3,9 dəfə çox icra edilib.

Dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 255 milyon manat təşkil edərək proqnoza qarşı 86,7 milyon manat və ya 25,4 faiz az icra edilib.

2025-ci ilin 5 ayı üzrə dövlət büdcəsinin xərcləri 14 milyard 195 milyon manat proqnoza qarşı 13 milyard 691,8 milyon manat, yəni 96,5 faiz icra edilib.

Büdcənin icrasında 3 milyard 446,2 milyon manat profisit (büdcə artıqlığı) yaranıb.

# Mərkəzi Bank faiz qərarını açıqlayıb

**Azərbaycan Mərkəzi Bankı faizlərini ardıcıl 9-cu dəfə dəyişməz saxladı.**

Azərbaycan Mərkəzi Bankı "Faiz dəhlizinin parametrləri haqqında" məlumat yayıb.

**Məlumatda bildirilir:**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7.25%, faiz dəhlizinin aşağı həddi 6.25%, faiz dəhlizinin yuxarı həddi isə 8.25% səviyyəsində dəyişməz saxlanılıb.

Qərar faktiki inflyasiyanın proqnoz inflyasiya trayektoriyasına uyğunluğu, proqnozlaşdırılan inflyasiyanın hədəflə (4±2%) müqayisəsi, son qlobal iqtisadi proseslərin mümkün təsirləri, daxili makroiqtisadi vəziyyət, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü nəzərə alınmaqla qəbul edilib.

İllik inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. 2025-ci ilin aprelində 12 aylıq inflyasiya 6.3%, aylıq inflyasiya isə 0.3% təşkil edib. İllik qiymət artımı ərzaq malları və xidmətlər üzrə 7.6%, qeyri-ərzaq malları üzrə isə 2.7% təşkil edib. İllik baza inflyasiya isə 4.8% olub.

Son aylarda inflyasiyaya təsir edən xarici amillər üzrə qeyri-müəyyənliklər yüksək olaraq qalır. Beynəlxalq Valyuta Fondunun məlumatına görə 2025-ci ilin aprelində əmtəə qiymətləri indeksi aylıq 1%, illik isə 4.6% azalıb. Ticarət tərəfdaşlarının orta çəkili illik inflyasiyası cari ilin aprelində ötən ilin eyni ayına nəzərən 9.6% olub. Manatın qeyri-neft-qaz sektoru üzrə nominal effektiv məzənnəsi 2025-ci ilin may ayında ötən ilin eyni ayı ilə müqayisədə sabit qalıb.

Xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Dövlət Gömrük Komitəsinin məlumatına görə 2025-ci ilin 4 ayında da xarici ticarət balansında müsbət saldo qeydə alınıb. 2025-ci və 2026-cı illərin yekunu üzrə tədiyə balansının cari hesabının profisitli olacağı proqnozu dəyişməz qalır.

Pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınmaqla tətbiq edilir. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət edir. AZIR indeksinin orta günlük səviyyəsi mayda və iyunun ötən dövründə 6.7% olub. Mərkəzi Bank banklararası pul bazarında gedən proseslərin təhlilini və qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq Avropa Yenidənqurma və İnkişaf Bankının ekspertləri ilə sıx əməkdaşlıq çərçivəsində AZIR indeksinin hesablanmasının yeni və daha təkmil qaydalarını hazırlayaraq təsdiq etmişdir. Aprel ayından başlayaraq Maliyyə Nazirliyi tərəfindən vahid xəzinə hesabının sərbəst qalığının kommersiya banklarında yerləşdirilməsi məqsədilə keçirilən depozit hərracları nəticəsində bank sektorunda likvidliyin artması AZIR indeksinə azaldıcı təsir etmişdir. Xatırladaq ki, ötən ilin ikinci yarısının bir çox aylarında hökumət hesabları qalığının artımı qısamüddətli faizlərə artırıcı təsir edirdi. Bu şəraitdə Mərkəzi Bank açıq bazar əməliyyatlarını intensivləşdirmiş, artan likvidliyin əhəmiyyətli hissəsi Mərkəzi Bankın əsas alətinə çevrilməkdə olan 1 həftəlik əməliyyatlarla sterilizasiya olunmuşdur. Sterilizasiya yönümlü açıq bazar əməliyyatlarının effektivliyini artırmaq üçün pul siyasətinin əməliyyat çərçivəsində dəyişiklik edilmiş, 7 günlük repo əməliyyatı 7 günlük depozit əməliyyatı ilə əvəzlənmişdir. Pul bazarında aktivlik yüksək olaraq qalır. 2025-ci ilin 5 ayında ötən ilin müvafiq dövrünə nəzərən təminatsız bazarda əqdlərin həcmi 1.6 dəfə, sayı isə 1.8 dəfə artmışdır.

Ötən iclasdan bəri inflyasiyanın risk balansında dəyişikliklər əsasən xarici mühitlə əlaqədar olmuşdur. Qlobal ticarətdə baş verən proseslər əmtəə və maliyyə bazarlarında dalğalanmaları gücləndirir. Bu şəraitdə əsas ticarət tərəfdaşı olan ölkələrdə inflyasiyanın yüksəlməsi, dollar indeksinin azalması və nominal effektiv məzənnənin aşağı templə möhkəmlənməsi xarici risk faktorlarındandır. İnflyasiyanı artıra biləcək daxili risk faktorları kimi isə xərc amilləri ilə yanaşı məcmu tələbin izafi artımı qeyd oluna bilər. Həmçinin kredit aktivliyinin məcmu tələbə və qiymətlərə mümkün təsirləri daim diqqətdə saxlanılır. Ümumilikdə, 2025-2026-cı illər üzrə inflyasiya proqnozlarında daxili amillərin payı aşağı qiymətləndirilir. Baza ssenariyə əsasən 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır.

Ümumilikdə, mövcud pul siyasəti inflyasiyanın hədəf daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. İnflyasiyanın xarici mühitində qeyri-müəyyənliklərin azalması növbəti iclasda uçot dərəcəsinin azaldılması üçün zəmin yarada bilər.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcəkdir. Mərkəzi Bank bundan sonra da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcəkdir.

# DÜNYADA QÜTBLƏŞMƏ: TOX VƏ AC DÜNYA BARƏDƏ DÜŞÜNCƏLƏR

***Qloballaşmanın qarşısını almaq, onu bir addım belələngitmək mümkün deyil. Ən əsası kimin bu dünyəvi prosesə hansı məqsədlə yanaşmasıdır. Xüsusən dünyanın belə ifrat qütbləşdiyi bir vaxtda. Məlumdur ki, planetimiz birdən-birə toxlar və aclar dünyasına çevrilməyib. Həm də qütbləşmə təkcə iqtisadi və siyasi mənada qəbul edilməməlidir. Qütbləşməyə ekoloji, irqi, dini, coğrafi təsirlər də səbəb olub, biri çox, biri az.***





*Akademik Ziyad Səmədzadə*

Bu gün dünyanı son dərəcə bəsit şəkildə iki qütbə bölürlər: şimal ölkələri və cənubda yerləşən ölkələr. Yenə bəsit bölgüyə görə, şimal yarımkürə ölkələri varlı və tox, cənub yarımkürəsi ölkələri isə yoxsul və acdırlar. Böyük yeddilik (ABŞ, Kanada, İngiltərə, Fransa, Yaponiya, Almaniya və İtaliya) də Şimal yarımkürəsində yerləşir.

Antiqlobalistlərin iddiasına görə, müstəmləkəçiliyin acı nöqtəsi olaraq dünya valyutası Şimal yarımkürəsindəki banklara yığılmışdır. Varlı, dövləti Şimal inkişaf etmiş super-dövlətlər qütbü, xəzinəsi boş olan Cənub isə inkişaf etməkdə olan ikinci, üçüncü, hətta dördüncü dərəcəli dövlətlər qütbüdür.

Qütbləşmənin özü də qədim tarixi olan bir prosesdir və müxtəlif obyektiv, subyektiv amillərdən asılıdır. Həm də bu müxtəliflik bir çox suallara cavab verir. Məsələn, ikinci, üçüncü dərəcəli dövlətlər siyahısına düşən Yaxın Şərq ölkələri, Avropanın cənubunda yerləşən Yunanıstan Şimaldan çox-çox əvvəl var-dövlət, güc-qüdrət sahibi olub, sivil cəmiyyət qurmuşlar. Bu gün artıq yoxsullar siyahısında olmayan Çinin yaratdığı elm, fəlsəfə və mədəniyyət bəşəriyyətin qədim kökləri olan möcüzəsi sayılır. Beş min kilometr uzunluğunda olan və bu günədək arxitektura gözəlliyini və möhtəşəmliyini saxlayan Böyük Çin səddinin 2500 il yaşı vardır. Bu möhtəşəm sədd, şübhəsiz, daha qədim və qiymətli milli dəyərləri qorumaq üçün tikilib. Dahi filosof Konfutsinin də yaşı Böyük Çin səddinin yaşı qədərdir. Çin mədəniyyəti sonralar bütün Avropa mədəniyyətinin, fəlsəfəsinin yaranmasına çox kömək edib. Yaxud Misir ehramlarının yaşı 3-5 min illə ölçülür. Yeddi möcüzədən biri olan Babil qülləsinin tikilməsini Allahın adı ilə bağlayırlar. Şumer dövləti, Akkad dövləti, elanlar, hetlər, aşşurlar, Manna dövləti, Urartu dövləti, Midiya dövləti, daha neçə-neçə dövlətlərin tarixi minilliklərlə ölçülür. Dünyaya ilk əlifbanı, yaxud mədəniyyəti Yaxın Şərq vermişdir. Azərbaycan 2700 ildən də çox tarixi olan atəşpərəstliyin vətəni olmuşdur. 12 min inək dərisinə yazılmış "Avesta" kitabı Makedoniyalı İsgəndərin Şərqə hücumundan çox-çox əvvəl şah kitabxanasının dəyərli incisinə çevrilmişdir. Riyaziyyat, həndəsə, astronomiya, təbabət, əczaçılıq, bir sıra idman oyunları və şahmat qədim Şərq mədəniyyətindən yadigardır.

XX əsrin son onilliklərindən indiyədək ən yoxsul ölkə sayılan, əhalisi dilənçilik həddinə çatmış indiki Əfqanıstanda arxeoloqlar 2-3 min il tarixi olan Baktriya-Bəlx mədəniyyəti nümunələrini tapmışlar. Qeyd edək ki, ən qabaqcıl və varlı kapitalist ölkəsi sayılan Amerikanın, yeni bir torpaq kimi, kəşfinin cəmi beş əsrlik tarixi vardır. Yaxud dünyaya qiymətli kitabları olan ən böyük dinləri Yaxın Şərqdə bu gün tapdaq altında olan, hər gün dağılan, əhalisi öz vətənində qaçqına, köçkünə çevrilən yalavac Fələstin torpağı və onun qonşuluğundakı dövlətlər vermişlər. Yeni eranın başlanğıcında Avropa torpaqlarında at oynadıb hökmranlıq etmiş, döyüş taktikaları bu günədək öyrənilən hunlar türklərin, özbəklərin, qazaxların, türkmənlərin, qırğızların və digər xalqların ulu babaları olmuşlar.

Mən bu faktları səbəbsiz gətirmirəm. Avropalılar özləri bu faktları etiraf edir, möcüzəli qədim Şərq haqqında kitablar yazırlar. Tarixin bu heyrətamiz gərdişi çoxlarını düşündürür. Orta və Cənubi Afrika, Avstraliya, Yeni Zelandiya və Okeaniya adaları, qədim Amerika haqqında danışmıram, onlar sonradan kəşf edilmiş ərazilərdir. Buna baxmayaraq, onlar da qütbləşmədə iştirak etmişlər.

Bəs necə olmuşdur ki, Şimal yarımkürəsi Cənub yarımkürəsinə güc gəlmişdir? Əlbəttə, ilk səbəb odur ki, xristian dini islam dinindən 600 il əvvəl yaranmış, Şimal xalqları bu dini qəbul edərək birləşə bilmiş, din bayrağı altında dinc ölkələri fəth etmiş, əmlakını, varidatını talayaraq, şəhər və kəndlərini dağıdıb-yandırmış, əhalisini qul vəziyyətinə salmışlar. Bir sözlə, din pərdəsi altında müstəmləkəçilik siyasəti addım-addım bütün yer kürəsini bürümüşdür. İslam dinindən sonra Şərq və Cənub yarımkürələri yeni intibah dövrünə qədəm qoymuşlar. Cənubun aparıcı dini olan islam dini indi müsəlman dünyası adlanan ölkələrin və ona qarşı olan məmləkətlərin özünüdərk "ideologiyasına" çevrilmişdir. Onu da qeyd edək ki, qloballaşma adı altında dini və mənəvi ekstremizm bu gün də cürbəcür aldadıcı qiyafələrdə davam edir, "ac adamı sevindirmək – idarə etmək daha asandır" düsturundan məharətlə istifadə edir. "Xeyirxahlıq", "iqtisadi yardım", "güzəştsiz kredit" və digər şirnikləndirici vasitələrlə ehtiyaca düşmüş millətlərin dinini, mentalitetini dəyişməklə onların tarixi-mənəvi kökünü kəsməyə, onları bir növ, canlı robota çevirməyə çalışırlar. Kömək, yardım, kredit almaq əslində təbii prosesdir, bir şərtlə ki, unutmayasan: havayı yem ən çox tələdə olur!

***Əmir Teymur vəsiyyət edib: Əvvəl böyük düşüncə, sonra böyük iş. Nəinki düşmən qapısında, hətta dost məclisində də kimliyini unutmamalısan. Çünki ağac öz kökü üstündə ucaldığı kimi, insanın da böyüklüyü onun mənliyindən qidalanır.***

Biz qloballaşmaya getməliyik, ancaq özümüzü dərk edərək getməliyik. Dərk etməliyik ki, dünyanın qəhrəmanlıq tarixində öz xəttimiz var. Dərk etməliyik ki, qədim mədəniyyət sahibiyik.

Qütbləşməyə tarixi baxımdan yanaşsaq, aydın olur ki, bu, zor, qəddarlıq, qan, dağıntı, saysız-hesabsız fəlakətlər üzərində qərar tutmuşdur, müstəmləkəçilik ehtirasının törəməsidir. Varlıdır, güclüdür, amansızdır. Qütbləşmə bəşər tarixində ən alçaldıcı və uzunömürlü bir prosesdir.

XX əsrdə qütbləşmədən törənən qazanc ehtirası ilə iki ən dağıdıcı dünya müharibəsi baş vermişdir. Bu, artıq dini bayraq altında aparılan müharibə deyildi, qütbləşmədə gecikmiş Almaniyanın öz din qardaşlarının və qitə qonşularının halal payına şərik çıxmaq təşəbbüsü idi. Milyonlarla insanın qanı bahasına bitən Birinci dünya müharibəsindən sonra hətta belə bir "fəlsəfi" fikir də meydana atılmışdı ki, guya müharibələr insanların sayını tənzimləyir.

XX əsrdə, xüsusən İkinci Dünya müharibəsindən sonra iqtisadi və siyasi qloballaşmanın pul, kapital müstəvisinə köçürülməsi müstəmləkəçiliyin yeni formada başlanmasıdır – desək, yanılmarıq. Dünyaya ağalıq etmək istəyən fövqəl dövlətlərin əlində kapital ən uzaqvuran raketdən də, ən güclü atom və hidrogen bombasından da qudrətli silaha çevrilmişdir. Məhz bu səbəbdən antiqlobalizm hərəkatı başlamışdır. Onlar qloballaşmanı zahirən cazibədar, yaşıl çəmənə oxşayan bataqlıqla müqayisə edirlər.

Göründüyü kimi, qütbləşmənin də, qloballaşmanın da dərin kökləri vardır. Gerçək dünyada yaşayıb, qloballaşmadan gizlənmək mümkün deyil. Qazanmaq da, itirmək də düşünülmüş dövlət siyasətindən, o cümlədən ağıllı iqtisadi siyasətdən asılıdır. Bu isə heç də asan başa gəlmir. Çünki milli mənafelərə, milli suverenlərə zidd qüvvələr çox güclüdür. Onlarla mübarizə aparmaq üçün daha tədbirli olmaq tələb edilir. Tarixi qocaltmış problemlərdən biri hesab edilən varlılar və yoxsullar problemini bu gün də "yumşaltmaq" mümkün olmamışdır. Adəm ata və Həvva ana ilahi qadağanı pozduqları üçün cəza olaraq behiştdən Yerə qovulduqdan sonra bu gerçək dünyada nəsillərcə insana kəsilən ən uzun müddətli cəza təbəqələşmə olmuşdur. Habil-Qabil qardaş faciəsindən sonra Adəm övladları varlılara və yoxsullara bölünmüşlər. Beləliklə, ağalar və qullar dünyası yaranmışdır. Doğmalıq unudulmuş, insanlar bir-birinə yadlaşmış, varlıların daha da varlanmaq hərisliyi, yoxsulların isə acından ölməmək uğrunda mübarizəsi üzündən müharibələr baş vermiş, kütləvi qırğınlar olmuşdur. Əsrlər ötmüş, quldarlıq ləğv olunmuş, formasiyalar bir-birini əvəz etmiş, irqi ayrı-seçkilik aradan qaldırılmış, dinlər arasında, nisbi də olsa, dözümlülük bərqərar olmuş, demokratik prinsiplər ümumi anlaşmaya çevrilmiş, bütün insanlara hüquq bərabərliyi haqqı verilmiş, irili-xırdalı dövlətlərin BMT çərçivəsində suverenliyi, toxunulmazlığı sənədləşdirilmişdir. Dünya kitabxanaları insanların bərabərliyi haqqında kitablarla doludur, lakin yoxsulluq hələ də ən ağır və çətin həll edilən problem olaraq qalmaqdadır.

***Hələ 1992-ci il oktyabrın 17-də BMT "Yoxsulluğun ləğv edilməsi haqqında" 47 (196) nömrəli qətnamə qəbul etmişdir. Qətnaməyə görə, bütün dünyada yoxsulluq 2015-ci ilədək yarıbayarı ləğv edilməli idi. Həmin vaxtdan hər il oktyabrın 17-si yoxsulluğun ləğv edilməsi uğrunda beynəlxalq gün elan edilmişdir. BMT qətnaməsinin on illiyi münasibətilə çıxış edən Kofi Annan dünyaya bildirmişdir ki, 47 (196) nömrəli qətnamə şirin bir xəyala, yuxuya dönmüşdür. Həmin sənədə görə, Yer üzündə yoxsulluğu 2015-ci ilədək yarıbayarı ləğv etmək nəzərdə tutulmuşdu ki, heç olmasa, xeyli adamı – kişini, qadını, qocanı, uşağı alçaldıcı bəladan xilas etmək mümkün olsun. Bu, yeni minillik qarşısında Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi ən humanist qərar idi. Təəssüf ki, bu qərar bir arzu olaraq qalmışdır.***

Tam olmayan hesablamaya görə, Yer üzündə nə az, nə çox, 840 milyon nəfər yoxsulluq həddindən aşağı vəziyyətdə yaşayır. Yoxsul gündə bir ABŞ dolları qazana bilən adamlara deyilir. Bunun özü də şərtidir, çünki ələləri var ki, daha az qazanırlar. Bəs, heç qazancı olmayanlar – imkansızlar, kimsəsizlər, əlsiz-ayaqsızlar neyləsin? Allah-təalanın özünə bənzədərək yaratdığı insan övladı bu qədərmi mənasızlaşıb? Cavab çox sadə, həm də dəhşətlidir. Planetimizdə hər gün 25 mindən çox adam acından ölür – hər üç saniyədən bir!.. Bu da təxmini hesablamadır. Ən ağır vəziyyət hazırda Əfqanıstanda, Lesoto, Malavi, Mozambik, Zambiya və Zimbabve kimi Afrika ölkələrindədir. İçərisindəki rüsvayçılığı gizlədən ölkələrdəki vəziyyəti də bura əlavə etsək, hər saniyə bir-iki yoxsulun ömrünün son nöqtəsi sayılır.

***Yoxsulluğun başqa bəlaları da var: insanların heysiyyatı ayaqlanır, ən hüquqsuz, ixtiyarsız qul vəziyyətinə düşənlərin sayı artır, qocalıq, xəstəlik bir dəhşətə dönür, dünya üzrə hər üç adamdan biri müalicə pulu tapa bilmir. Dəhşətli faktlardan biri uşaqların təhsil ala bilməməsidir. Bu, gələcəyin də bədbəxtliyi deməkdir.***

Ölkə var ki, ərzağı saxlamağa yer tapa bilmir, onu məhv edir, ölkə də var ki, əhalisi bir qarın çörəyə möhtacdır.

XX əsrin əvvəllərində BMT-nin Baş katibi ilk növbədə donor ölkələri günahlandırırdı ki, onlar yeni minillik qarşısında qəbul etdikləri vədlərə əməl etmirlər. Bundan əlavə, humanitar yardımlar üzərində nəzarət də yaritmaz idi, çox vaxt bilinmirdi ki, kim hansı yardımı - ərzağı, sənaye malını, dərmanı, ya pulu hara aparır. Bir sözlə, haqq işi ilə tamah dişi bir məcraya sığmayıb, sığmır və sığmayacaq. Tamah dişi iti olanların həmişə dili də iti olub, gözyaşardan sözlər deyiblər, amma göz yaşını silməyiblər. Qurani-Kərimdə belələrinə "münafiq" deyilir, yəni riyakar. Riyakar isə İblisin sözünə uyanlardır, yolsuzlardır. "Yolsuzları doğru yola yönəltməz Allah" (Münafiqin surəsi). Bəs, yoxsulluğu törədən əsas səbəblər nələrdir? Doğrudanmı, torpaq onu sevən insanları dolandıra bilmir? Bu, artıq fəlsəfi sual deyil, təkcə alimləri, deyil, siyasət adamlarını və din xadimlərini, sadə insanları da düşündürür. Çətin sualdır: Dünyamız nə üçün toxlar və aclar planetinə çevrilib?

Allah-Təala hər şeyi nizamlı yaradıb. Meşəni yaradıbsa, ağacı, ya kolu susuz səhrada da, sıldırım qaya üstündə də yaşadıb. Allah insana yaşamaq üçün ağıl verib. Yer üzündə nə dəyişiklik və əlavə varsa, onları insan öz ağlı ilə etmişdir. İnsan Yer kürəsinin əşrəfinə, əsl sahibinə çevrilmişdir.

Qlobal dünyanı öz bildiyi kimi yenidən qloballaşdıran da insan ağlıdır. Hər şeyə qalib gələn insan, nəhayət, özü ilə müharibəyə girmişdir.

Şiri, aslanı öldürmək üçün bir güllə bəs edirsə, insan öz əleyhinə elə silah düzəldib ki, zərbindən şəhərlər dağılır. Qloballaşma beynəlmiləl termindir, onun mahiyyəti isə dünyamızda yaranmış bugünkü siyasi, iqtisadi, mənəvi-etik mənzərədir. İnsanları tərəqqi və xeyirxahlıq üzərində birləşdirə biləcək qloballaşma, eyni zamanda, yeni Habil-Qabil faciəsinə çevrilməkdədir, eqozim, tamah yaratmaqdadır, nəcib insani hisslərə güc gəlməkdədir. Qütbləşmə ucbatından qloballaşma dünyada sosial təqəbələşməni daha da gücləndirir, inhisarçılığı artırır, insanların təbii haqlarını açıq-aşkar zərbə altına salır. Nəticədə Allah-Təalanın insan üçün sevgi ilə yaratdığı Yer kürəsi toxlar və aclar dünyasına çevrilmişdir.

**Sübut üçün XXI əsrin birinci onilliyinin əvvəllərində dünya əhalisinin bəzi əsas statistik göstəricilərinə nəzər salaq: Yer üzündə Adəm övladlarının sayı yeddi milyardı ötmüşdür. Dünya əhalisinin xeyli hissəsi yaşamaq imkanından məhrumdur.**

***2,5 milyard adamın mənzil şəraiti çox pisdir, yaxud yatmağa yeri yoxdur, elektrikin nə olduğunu bilmir, sanitar-gigiyena xidmətlərindən məhrumdur.***

Bu, aclar dünyasının tam olmayan mənzərəsidir.

**Bəs, toxlar dünyasının ən çox gözəgörünən mənzərəsi necədir?**

Avropada hər il 100 milyard dollarlıq spirtli içki içilir, siqaret çəkilir.

***Yoxsullar isə sanki Tanrının günahkar övladlarıdır.***

Nüfuzlu beynəlxalq təşkilatlar və zəngin dövlətlər yoxsulların minimum təminatı üçün tələb edilən məbləği ayırmaq istəmirlər. Bu, "qızıl milyard"ın heç bir neçə faizi də deyildir.

Doğrudanmı, qloballaşma yoxsulluğun yeganə səbəbidir? Axı, qloballaşma təkcə iqtisadiyyatla tamamlanmır. Əslində qloballaşma heç də yeni məsələ deyil. Bu barədə hələ XXI əsrin əvvəllərində "İqtisadiyyat" qəzetində "Qloballaşma, Qafqaz və Orta Asiya" mövzusunda beynəlxalq konfransda bir geniş müzakirə aparmışdıq. İbtidai qəbilələr bir-birləri ilə yaxınlaşıb ümumi mənafelərini birləşdirəndən, dövlətlər yaranandan bəri Yer üzündə qloballaşmanın rüşeymləri əmələ gəlmişdir. Sonrakı dövrdə və müxtəlif ictimai formasiyalar şəraitində xalqlar, ölkələr savaşıb-barışaraq, qitədən-qitəyə yürüşlər edərək, ticarət yolları şəbəkəsini yaradaraq, yeni torpaqları kəşf edərək dünyanı daha da qloballaşdırmışlar.

***XX əsrdə, XXI əsrin arxada qalan illərində isə misilsiz elmi-texniki inkişaf qloballaşmanın sürətini artırıb, miqyasını genişləndirmişdir.***

Qloballaşmanın siyasi-iqtisadi, mənəvi-etik ideologiyaya çevrilməsi probleminin mahiyyətinə də münasibət birmənalı deyil. Aparıcı dövlətlərin siyasi xadimləri müasir dünyamızda ümumbəşəri qloballaşma prosesinə müsbət hadisə, tarixin ədalətli hökmü kimi baxırlar. Bu prosesdə dünyanın ən varlı təşkilatları, ən iri bankları fəal iştirak edirlər. Fəlakətin ayağı dəydiyi, yandırıb-yaxdığı, müflisləşdirdiyi ağır vəziyyətə saldığı məmləkətlərdə, bir qayda olaraq, donor ölkələrin səxavətli briqadaları, şirkətləri peyda olurlar. Ən iri beynəlxalq banklar, valyuta fondları sərt, güzəştsiz şərtlər əsasında kreditlər ayırır, demək olar, öz istədikləri kimi yenidənqurma işləri aparırlar. Bundan böyük diqqət, bundan böyük həmrəylik, bundan böyük qayğı və xeyirxahlıq olarmı?

***Bəs, belə isə, dünyanın ən inkişaf etmiş ölkələrində qloballaşma əleyhinə çoxsaylı kütləvi mitinqlərə, yürüşlərə, piketlərə səbəb nədir?***

# “Tiqran Xaçaturov etiraf etdi ki, o, bu materiallarla tanış deyil”...

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Ziyad Səmədzadə Teleqraf-ın suallarını cavablandırıb.***

**Onunla müsahibəni təqdim edirik:**

***- Ziyad müəllim, Rusiya Prezidentinin köməkçisi Vladimir Medinskinin "Russia Today" kanalına müsahibəsində keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı faktlar təhrif edilib, Qarabağ bölgəsi mübahisəli ərazi kimi təqdim olunub. Ukrayna ərazisində yaranmış 4 bölgə ilə Qarabağ arasında paralellik aparılıb. Bunu necə başa düşmək olar?***




- Azərbaycanın Xarici İşlər Nazirliyinin də bu məsələ ilə bağlı bəyanatı var. Bu bəyanat verilən açıqlamaya adekvatdır və onu təqdir edirəm. Sözsüz ki, Rusiya Prezidentinin köməkçisinin fikirləri heç bir məntiqə sığmır. Bu yanaşmanı yalnız Azərbaycan-Rusiya münasibətlərinə zərbə vuran bir hal kimi qiymətləndirmək olar. Çünki Azərbaycan dövləti müstəqil siyasət yürüdür və heç vaxt, heç bir dövlətin ərazisinə yan baxmayıb. Ölkəmiz özünün ərazi bütövlüyünü qorumaq üçün bütün imkanlardan istifadə etdi. Beləliklə, Azərbaycan ərazisində uzun on illiklər kök salmış erməni separatizminə son qoyuldu. Bir məsələni də xatırlayaq ki, Azərbaycan müstəqilliyinin ilk illərində sabiq Rusiya prezidenti Boris Yeltsinin və ondan öncə isə keçmiş SSRİ prezidenti Mixail Qorbaçovun ölkəmizə qarşı haqsız, ədalətsiz münasibəti nəticəsində ermənilərin fəaliyyəti genişlənmişdi. Bu gün isə Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Artıq Ermənistanın işğalından azad edilən ərazilərdə böyük quruculuq işləri gedir. Dünyanın mütərəqqi insanları ölkəmizin bu məsələlərdəki haqq işini dəstəkləyir.

***- Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi rusiyalı həmkarlarınızla bu cür bəyanatların iki ölkə arasında münasibətlərə mənfi təsirləri ilə bağlı hansı söhbətlər aparmısınız? Bu yanlışlıqları onların diqqətə çatdırırsınızmı?***

- Uzun illər Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti olmuşam. Çoxsaylı görkəmli rus alimləri, ən məşhurları ilə dostluq etmişəm. İndi də onlarla münasibətlərim var. Müəllifi olduğum **“Dağlıq Qarabağ: gizli qalan həqiqətlər" (Нагорный Карабах: Неизвестная Правда) kitabımda bütün faktları göstərmişəm.** Həmçinin onlarla təmaslarımda da bildirmişəm ki, Qarabağ Azərbaycan torpağıdır. Oranın sosial-iqtisadi inkişafına keçmiş sovet dövründə də xüsusi diqqət ayrılıb. Ermənilər o vaxt iddia edirdilər ki, onlar guya burada pis yaşayırlar. Amma biz erməni alimlərinin iştirakı ilə böyük dəyirmi masa keçirdik. Onlara sübut etdik ki, Azərbaycan dövləti heç vaxt regionların inkişafı prosesində ermənilərin yaşadığı yerlərə diqqətsiz qalmayıb. Ermənilər də bunu gördülər, inandılar. Həmin dəyirmi masada keçmiş SSRİ-nin akademiki, əslən erməni olan Tiqran Sergeyeviç Xaçaturov etiraf etdi ki, çox təəssüf ki, o bu materiallarla tanış deyil. Eyni zamanda mütəmadi olaraq alimlərlə beynəlxalq konfranslarda, tədbirlərdə öz fikirlərimizi deyirik və bundan sonra da deyəcəyik.

***- Kremldən olan bu kimi açıqlamalar Azərbaycan-Ermənistan sülh prosesinin ruhuna necə təsir edə bilər?***

- Sözsüz ki, bu kimi çıxışlar sülh prosesi ilə yanaşı, Ermənistandakı revanşistlərin də əhvalına təsir edə bilər. Amma ədalət bərpa olunub. Azərbaycanın haqq səsi, bir- iki ölkəni çıxmaq şərti ilə, bütün dünya tərəfindən qəbul edilir. Prezident İlham Əliyevin həyata keçirdiyi milli maraqlara, ölkənin iqtisadi, milli təhlükəsizliyinə cavab verən siyasəti beynəlxalq aləm tərəfindən birmənalı şəkildə qəbul olunur. Ona görə də kənardan hansısa amillərin ümumi prosesə təsirlərinin olması mümkün deyil. Nə olmasından asılı olmayaraq isə hansısa təsirlər olsa belə, bu Azərbaycan dövləti tərəfindən aradan qaldırılacaq.

***- Rusiya xarici işlər nazirinin İrəvana son səfərində verilən məlum bəyanatlardan sonra Ermənistanda artan daxili isterika arasında hansısa əlaqə varmı?***

- Bunlar hamısı iyrənc siyasi oyunlardır. Müəyyən hallarda ayrı-ayrı hadisələrin fonunda bu kimi cəhdlər edilir. Uzun illər Azərbaycan əraziləri Ermənistan tərəfindən işğalda saxlanıldığı dövrdə buna dair mənfi fikirlər səslənirdi. Amma onların heç bir nəticəsi olmadı. Azərbaycan dövləti düzgün milli maraqlara, beynəlxalq qaydalara, qanunlara cavab verən siyasət həyata keçirir. Ona görə də nə qədər təlatümlü hadisələr baş versə də, onlar heç bir nəticə verməyəcək.

**Tapdıq Qurbanlı,**
**www.teleqraf.az**

## “PAŞA Bank" Qarabağda fəaliyyət göstərən tərəfdaş şirkətlərlə 5 milyard manatlıq müqavilə imzalayıb"



“2021-ci ildən bu günədək Qarabağ regionunda fəaliyyət göstərən tərəfdaş şirkətlər tərəfindən ümumilikdə 5 milyard manat dəyərində müqavilə imzalanıb”. Bunu “PAŞA Bank"ın İdarə Heyətinin sədri Cavid Quliyev bankın ötən ilin yekunları ilə bağlı keçirdiyi brifinqdə deyib.

O bildirib ki, bu müqavilələr çərçivəsində “PAŞA Bank” tərəfindən ümumilikdə 300 milyon manat məbləğində maliyyələşmə təmin edilib. ***“Bunun 200 milyon manatı qeyri-nağd öhdəliklər, 100 milyon manatı nağd maliyyələşmədir. “PAŞA Bank” Qarabağ və Zəngəzurda turizm və xidmət infrastrukturunun qurulması, regionlarda yol və nəqliyyat bağlantılarının inkişafı, su ehtiyatlarının idarə olunması, bank xidmətlərinin əlçatanlığının artırılması kimi sahələrə töhfə verir”***, - deyə Cavid Quliyev vurğulayıb.

## “PAŞA Bank” kreditin təsdiqi müddətində radikal azalmaya nail olub”

Bunu 2024-cü ilin yekunlarına həsr olunmuş mətbuat konfransında “PAŞA Bank” ASC-nin İdarə Heyətinin sədri Cavid Quliyev bildirib.

O, rəqəmsallaşmanın kreditləşmə prosesinə təsirinə toxunaraq əlavə edib ki, təsdiq müddətində radikal azalma baş verib: ***“Rəqəmsallaşmanın kreditləşmə prosesinə təsiri: əvvəl kredit müraciətinin təsdiqi 48 saata qədər vaxt aparırdı, indi 8 saata endirilib. Əgər əvvəllər müştəri kredit xəttinin aktivləşməsi üçün bir neçə gün gözləyirdisə, artıq kredit xətti avtomatik uzadılma ilə 2 saata aktiv olur. Paylama zəncirində əməliyyatların tamamlama müddəti isə əvvəl 2 saat təşkil edirdisə, indi 30 saniyənin altında nəticədir”.***

## “PAŞA Bank” bu il “Şuşa” filialını və Ağdamda nümayəndəliyini açacaq




Bunu “PAŞA Bank"ın İdarə Heyətinin sədri Cavid Quliyev bankın ötən ilin yekunları ilə bağlı keçirdiyi brifinqdə deyib.

“Bu il ərzində “Şuşa” filialı və Ağdam şəhərində nümayəndəliyimizi açmağı planlaşdırırıq”, - deyə C.Quliyev qeyd edib.

Ötən ilin müştəri köçürmələrinə toxunan Cavid Quliyev bu əməliyyatların 15,8 faiz artaraq 113 milyard 944 milyon 625 min manat təşkil etdiyini vurğulayıb.

O bildirib ki, ötən il bankın kredit portfeli 18,2 faiz artaraq 3 milyard 360 milyon 976 min manata, fərdi sahibkarlara verilmiş kreditlər 28,5 faiz artaraq 103 milyon 316 min manata, o cümlədən hüquqi şəxslərə verilmiş kreditlər 15,3 faiz artaraq 2 milyard 899 milyon 671 min manata çatıb: ***“PAŞA Bank” ötən ili 214 milyon 535 min manat xalis mənfəətlə başa vurub (-21 faiz)”.***

## “PAŞA Bank”ın xalis mənfəətinin azalmasının səbəbi açıqlanıb

***“2025-ci ildə “PAŞA Bank” ASC-nin xalis mənfəətinin azalması əsasən faiz xərclərinin artması ilə əlaqədardır”.***



Bunu 2024-cü ilin yekunlarına həsr olunan mətbuat konfransında “PAŞA Bank” ASC-nin İdarə Heyətinin sədri Cavid Quliyev bildirib. “Digər banklarda olduğu kimi, “PAŞA Bank”ın da faiz xərcləri artmışdır. Biz qərar verdik ki, artan depozit faizlərini kredit faizlərində kəskin əks etdirməyək. 2024-cü ildə “PAŞA Bank”ın xalis faiz gəlirliliyi marjası 1,1 faiz bəndi azalaraq 5,5% səviyyəsində olub. Başqa sözlə, faizlərdə olan artım müştərilərə verilən kreditlərin faizlərində əks etdirilməyib, bank bunu, öz xalis gəlirinin bir hissəsindən imtina etməsi hesabına həyata keçirib”, - bankın sədri deyib.

## Daşkəsəndə Qurban bayramı münasibətilə sosial yardım aksiyası keçirilib







Müqəddəs Qurban bayramı ərəfəsində “AzerGold” QSC, Daşkəsən Rayon İcra Hakimiyyəti və QSC-nin törəmə cəmiyyəti olan “Daşkəsən Dəmir Filiz” MMC-nin birgə təşkilatçılığı ilə sosial yardım aksiyası keçirilib.

Aksiya Daşkəsən rayonunda qeydiyyatda olan Birinci və İkinci Qarabağ – Vətən müharibəsi şəhidlərinin ailələri, müharibə zamanı yaralanmış şəxslər, eləcə də aztəminatlı ailələri əhatə edib. Onlara bayram təbrikləri çatdırılıb, qurban əti və digər ərzaq məhsullarından ibarət sovqatlar təqdim edilib.Sosialyönümlü bu təşəbbüs ümumilikdə 160 ailəni əhatə edib. Qeyd edək ki, “AzerGold” QSC-nin Sosial təsir və məsuliyyət üzrə siyasəti çərçivəsində mütəmadi olaraq həyata keçirilən bu tip aksiyalar əhalinin rifah halının davamlı olaraq yaxşılaşdırılması istiqamətində dövlətin yürütdüyü siyasətə dəstək məqsədi daşıyır.

## “AzerGold” QSC və RİİB Daşkəsəndə ekoloji tədbirlər keçirib




“AzerGold” QSC və “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) təşkilatçılığı ilə Daşkəsən rayonunda 5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş “Təbiətə qayğı missiyamızdır!” devizi altında təlim və təmizlik aksiyası keçirilib.

Ətraf mühitin mühafizəsi, tullantıların düzgün idarə olunmasının təşviqi və ictimaiyyətin bu sahədə maarifləndirilməsi məqsədilə təşkil edilən tədbirlərdə QSC-nin əməkdaşları və RİİB könüllüləri iştirak ediblər.

Əvvəlcə Gəncə-Daşkəsən iqtisadi rayonunun ən böyük su hövzələrindən biri olan Qoşqarçayın Daşkəsən rayonunun Quşçu kəndindən keçən hissəsində plastik çirklənmənin ətraf mühitə təsirlərinə dair maarifləndirici təlim keçirilib. Təlim zamanı ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması, tullantıların təkrar emalı ilə təbiətin mühafizəsinə və ekoloji balansın saxlanılmasına töhfə verilməsi istiqamətində məruzələr dinlənilib.

Daha sonra tədbir iştirakçıları tərəfindən Qoşqarçayın sahilləri boyu, təqribən 2 hektara yaxın meşə ərazisi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizlənib. Yığılmış tullantılar çeşidlənərək, təkrar emala yönəldilib. Eyni zamanda aksiya iştirakçıları Daşkəsən şəhərinin mərkəzi küçələrinə yeni tullantı konteynerləri yerləşdiriblər.

Qeyd edək ki, “AzerGold” QSC ölkəmizin dağ-mədən sənayesini uğurla təmsil edən dövlət şirkəti olaraq, ekoloji məsələlərə xüsusi önəm verir. QSC hasilat və istehsalat proseslərini yerli və beynəlxalq ekoloji standartlara uyğun həyata keçirməklə yanaşı, regionlarda mütəmadi ekoloji layihələr təşkil edir. Hər il QSC-nin təşəbbüsü ilə ağacəkmə, yaşıllaşdırma və təmizlik aksiyaları həyata keçirilir.

Xatırladaq ki, Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü 1972-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən təsis olunub. BMT-nin Ətraf Mühit Proqramı (UNEP) tərəfindən “Plastik çirklənmənin həlli yolları” bu ilin mövzusu seçilib. Mövzu çərçivəsində plastik tullantıların azaldılması və təkrar emalın təşviqi məqsədilə “#BeatPlasticPollution” kampaniyası həyata keçirilir.

## Утверждена Стратегия развития сектора обязательного страхования



В Азербайджане утверждена Стратегия развития страхового сектора Союза юридических лиц "Бюро обязательного страхования" (БОС) на 2025-2027 годы.
Стратегия разработана с целью обеспечения устойчивого, инновационного и прозрачного развития сектора обязательного страхования в Азербайджане.
В документе отражены основные цели БОС на 2025-2027 годы и меры, которые будут реализованы. Миссия БОС заключается в предоставлении быстрых бизнес-решений для развития сектора обязательного страхования, содействии регулированию нормативно-правовой базы в этой области, создании и развитии надежной, функционирующей среды обязательного страхования, доступности услуг по обязательному страхованию, создании стабильного и надежного гарантийного фонда, внедрении передового опыта и инноваций в этой области.
В настоящее время БОС играет важную роль в устойчивом развитии и эффективном регулировании сектора обязательного страхования, осуществляя деятельность по направлениям Информационного центра, Гарантийного фонда, Страхового мозгового центра, Бюро грин-карт, агитации и продвижения.
Укрепление финансовой устойчивости и функциональной эффективности БОС как Гарантийного фонда определено как одна из основных стратегических целей с точки зрения обеспечения долгосрочной надежности системы обязательного страхования.

## bp объявила о завершении проекта социальных инвестиций в Азербайджане

bp от имени своих партнеров по проектам Азери-Чираг-Гюнешли, Баку-Тбилиси-Джейхан, Шахдениз и Южно-Кавказский газопровод – SOCAR, TPAO, LUKOIL, SGC, NICO, MOL, INPEX, ExxonMobil, ITOCHU, ONGC Videsh, Eni, MVM и TotalEnergies – объявила об успешном завершении социальной инвестиционной инициативы, направленной на поддержку усилий по передовой цифровой трансформации в стране.
Цель проекта заключалась в создании новой цифровой платформы для совершенствования деятельности Совета по медиации Азербайджана. Эта инициатива стала значительным вкладом в расширение возможностей использования услуг по медиации по всей стране и повышение их эффективности.
«Мы рады поддержать этот проект, способствующий развитию в Азербайджане относительно новой сферы. Ранее обращения в Совет по медиации обрабатывались вручную, что часто приводило к задержкам и неудовлетворенности среди пользователей. Учитывая растущий спрос и необходимость модернизации, мы совместно с партнёрами поддержали создание комплексной онлайн-платформы, которая упрощает и цифровизирует все этапы процесса медиации. Мы уверены, что этот проект, приносящий подлинную эффективность и инновации в сферу общественных услуг, является важным вкладом в цифровую трансформацию судебной системы Азербайджана», - сказал вице-президент bp по Каспийскому региону Бахтияр Асланбейли.
На новой платформе представлены разнообразные цифровые функции, значительно улучшающие общее управление услугами медиации. Основные преимущества новой платформы включают:
• Улучшение общественного доступа: граждане и юридические лица теперь могут пользоваться услугами медиации оперативнее и удобнее.
• Повышение эффективности работы: Совет по медиации теперь может рассматривать большее количество обращений и в реальном времени получать необходимые документы от государственных учреждений.
Общая стоимость проекта, продолжавшегося восемь месяцев, составляет 126 880 манатов (74 635 долларов США). В эту сумму вошли закупка и установка оборудования, разработка ИТ-инфраструктуры и программного обеспечения, создание портала, а также обучение персонала для эффективного использования новой платформы.

## Иран намерен соединить Ардебильскую железную дорогу с Азербайджаном

Будут предприняты усилия по соединению железной дороги провинции Ардебиль, расположенной на северо-западе Ирана, с железнодорожной сетью Азербайджана.
Как сообщает во вторник Trend, об этом заявил новый посол Ирана в Азербайджане Муджтаба Демирчилу на встрече с губернатором иранской провинции Ардебиль Масудом Имами Егана.
По его словам, в центре внимания будет как соединение железнодорожной линии, так и строительство железнодорожного терминала.
*"Провинция Ардебиль*



*имеет важное значение во взаимоотношениях между Ираном и Азербайджаном. Возможности и потенциал этой провинции играют значительную роль в укреплении отношений двух стран"*, - отметил дипломат.
Напомним, что Муджтаба Демирчилу назначен новым послом Ирана в Азербайджане.

## Стена позора между богатыми и бедными



В столице Перу, пыльной и солнечной Лиме, стоит стена. Это не просто ограда, а монумент социального расслоения, бетонная метафора человеческой жестокости и страха, которую перуанцы называют «Стеной позора». И не случайно: она рассекает Лиму по живому, отделяя богатых от бедных, довольных от нищих, тишину от шума, а зеленый оазис — от пустынной безнадежности.
Уже полвека «Стена позора» делит город на два несовместимых мира. Один — с особняками за миллионы, с садами, бассейнами и частной охраной. Другой — с хибарами из жестяных листов, с отсутствием воды и электричества, с пылью вместо тротуаров и тенью, в которой скрываются люди, уставшие от борьбы за жизнь. Протяженность этой стены — десять километров. Десять километров позора, отчуждения и страха, встроенных в городской ландшафт.
Здесь, как нигде, городская сегрегация проявлена физически: богатые не просто избегают бедных — они буквально заперлись от них за стеной. В прямом смысле, без эвфемизмов. Их не интересуют голоса по ту сторону стены - они не желают их видеть, слышать, чувствовать. И если поначалу это вызывало стыд, то теперь превратилось в рутину. Увы, именно так работает классовое сознание: со временем изоляция становится нормой, а жестокость — «механизмом самозащиты».
Официально эта стена не предусмотрена ни в одном градостроительном плане. Нигде не зарегистрирована, никем не утверждена, никак не согласована. Но она стоит как символ рационализированной жестокости. Ибо бедные, мол, склонны к воровству, проявлению зависти и импульсам социальной агрессии, а потому пусть живут за оградой. Такова философия XXI века, в рамках которой любое насилие можно объяснить логикой безопасности, а любое социальное преступление перевести на язык права. И кто-то в это обязательно поверит.
Суды о сносе стены продолжаются уже десять лет. В январе 2023 года Конституционный суд Перу признал ее незаконной и постановил демонтировать, поскольку она нарушает базовые права человека. В частности, свободу передвижения. Хотя юридический язык решения не передал главного: это не просто спор о проходе, а фронт классовой войны, встроенный в архитектуру города. Но поскольку озвучивать подобное неполиткорректно, юристы Конституционного суда использовали выражения «право на проход» и «городская планировка». Как будто за сменой терминов можно спрятать правду!
В 2017 году вышел документальный фильм «Два мира, две Лимы». Его сценарист попытался попасть в закрытый район не через стену, а обычным маршрутом, но уперся на входе в охрану и указание: «Вход только по личному приглашению». Гражданин своей страны оказался нежелательной фигурой в ее же столице.
Когда было принято решение снести стену, жители Лимы встретили его с надеждой. Впрочем, вскоре работы приостановили. Но даже если бы стену полностью разобрали, на ее месте все равно появились бы шлагбаумы, охрана, камеры, электронные пропуска. Такое мы видим сплошь и рядом: камень превращают в пластик, кирпичи - в биометрию, а суть все равно останется прежней - та же самая сегрегация, только в новой упаковке. И пока существуют антагонистические классы, стена будет жить. Даже если ее не видно. И если однажды стену действительно снесут, что будет преподнесено миру как триумф прогресса и победа справедливости, это будет лишь иллюзия. Революция формы, но вовсе не содержания. Такова природа «улыбчивого рабства», в которой фасад неизменно красив, а смысл — неизменно жесток.
Все это уже было и не раз. Императоры Китая жили в «Запретном городе» — в самом сердце Пекина, куда простолюдинам вход был запрещен. В Иране шах Пехлеви огородил часть Тегерана, превратив ее в «золотую клетку» - сияющую резервацию для персидской элиты и иностранцев, в которую иранский народ не допускался. Увы, история полна «стен позора», просто периодически они меняют облик.
Сегодня это повторяется в странах третьего мира - формально демократических, но де-факто феодальных. Центр города — для «белых воротничков», окраины — для лаццарони. Очищенный центр и загнанная за его пределы реальность. Это не просто урбанистика — это насильственное форматирование пространства под нужды господствующего меньшинства.
Архитектор барон Осман, перестраивая в XIX веке Париж, делал подобное именно с этой целью. Не для красоты, а чтобы исключить возможность восстаний, подобных революциям 1848 года. Он разрушил старые парижские кварталы, переселил бедных на окраины и сделал улицы широкими и прямыми, чтобы армия могла быстро подавлять протесты. Париж стал картой страха, архитектурой господства.
В XX веке модель Османа быстро растиражировалась по всему миру: в Каире — остров Замалек, в Абиджане — «Ривьера», в Лагосе — остров Виктория, в Маниле — Лойола-Хайтс… Везде анклавы богатства, отгороженные от народного тела.
А в XXI веке у Османа появились очередные наследники. В индийском Мумбаи находится крупнейшая трущоба в Азии — Дхарави. Почти 22-миллионный мегаполис растет вокруг, но вовнутрь этой трущобы никого не впускает. Обитатели Дхарави — живое напоминание о цене, которую платит бедное большинство, чтобы элита могла жить за стеклом и сталью.
И это не случайности, а стратегия, в рамках которой городская сегрегация превратилась в форму перманентной социальной войны. Под лозунгами «модернизации», «развития», «улучшения городской среды» бедных вытесняют, изгоняют, выдавливают с земли, которая становится золотым активом для застройщиков.
В Бразилии Алфавиль — центральный район Сан-Паулу — стал фактически отдельным городом с частными дорогами, вооруженной охраной, стенами и камерами. Здесь живут и работают те, кто управляет экономикой. А за стенами — остальной Сан-Паулу с его бедностью, криминалом и «ненужными».
Но вот ведь в чем трагикомизм всей этой «архитектуры контроля»: она обеспечивает богатым не безопасность, а только ее иллюзию. Иллюзию, за которую они платят миллионы, охраняя фасады от теней правды.
Вопрос лишь в том, когда исчезнет последний кирпич, удерживающий эту иллюзию от необратимого обрушения?

**Мамед Сулейманов, автор haqqin.az**

## SOCAR и SEFE подписали десятилетний контракт на поставку природного газа

Государственная нефтяная компания Азербайджана (SOCAR) и государственная энергетическая компания Германии SEFE (Securing Energy for Europe) подписали десятилетний контракт на поставку природного газа.
Об этом сообщает во вторник Trend со ссылкой на SOCAR.
Согласно документу, объемы газа будут поставляться SOCAR в Европу для компании SEFE.
Как сообщается, годовой объем поставок будет поэтапно увеличен до 15 тераватт-часов (TWh), что эквивалентно примерно 1,5 миллиарда кубометров природного газа.
"Это сотрудничество будет способствовать увеличению поставок трубопроводного газа в Европу за счёт поддержки инвестиций в добычу и инфраструктуру, включая газовые компрессорные установки, тем самым внося вклад в обеспечение энергетической безопасности континента", - говорится в информации SOCAR.
Генеральный директор SEFE Эгберт Леге заявил, что этот долгосрочный контракт является ярким примером прочных отношений между Германией и Азербайджаном.
"Благодаря этому партнёрству формируется новый маршрут для поставок значительных объёмов природного газа в Европу. Это способствует диверсификации нашего портфеля и усилению безопасности энергоснабжения наших клиентов", - отметил он.
Президент SOCAR Ровшан Наджаф, в свою очередь, подчеркнул, что это соглашение является очередным важным этапом в деятельности SOCAR, направленной на укрепление энергетической безопасности Европы.






# Mərkəzi Gömrük Hospitalında ilkin yanğın təhlükəsizliyi qaydaları ilə bağlı praktiki təlim keçirilib





***4 iyun 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında inzibati və tibbi heyət üçün fövqəlada hallar zamanı ilkin yanğın təhlükəsizliyi qaydaları və pasiyentlərin təxliyyəsi ilə bağlı praktiki təlim keçirilib. Təlimdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, Mərkəzi Gömrük Hospitalının müxtəlif şöbələrinin əməkdaşları, tibb bacıları, tibb qardaşları, həkim rezidentlər və texniki işçilər iştirak ediblər.***

Tədbirin açılış hissəsində çıxış edən Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev səhiyyə müəssisələrində yanğın təhlükəsizliyinin təmin olunmasının təkcə maddi zərərlərin qarşısının alınması baxımından deyil, həm də pasiyentlərin sağlamlığı və həyatı üçün olduqca vacib olduğunu qeyd edib. Dr.İsmayıl Əfəndiyev əməkdaşların fövqəladə hallarda düzgün və operativ reaksiya verə bilməsinin, eləcə də hərəkət qabiliyyəti məhdud olan pasiyentlərin təhlükəsiz və koordinasiyalı şəkildə təxliyəsi prosesində, əməkdaşların fövqəladə hallara hazırlıq səviyyəsinin artırılmasında, ilkin yanğınsöndürmə vasitələrindən düzgün istifadə bacarığının təkmilləşdirilməsində və təhlükəsizlik mədəniyyətinin gücləndirilməsində bu cür təlimlərin əhəmiyyətini diqqətə çatdırıb.

Daha sonra Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov çıxış edərək hər bir əməkdaşın yanğın və digər fövqəladə vəziyyətlər zamanı sürətli qərar vermə, düzgün davranış modeli sərgiləmə və effektiv komanda işi nümayiş etdirmə bacarığı həyati önəm daşımasını, belə təlimlərin tibbi personalın fövqəladə situasiyalara qarşı psixoloji hazırlığını da gücləndirdiyini qeyd edib.

Təlimin praktiki hissəsində Mərkəzi Gömrük Hospitalının yanğından mühafizə üzrə məsul şəxs Qasımov Rizvan ilkin yanğın zamanı düzgün davranış, ilkin yanğınsöndürmə avadanlıqları və fərdi mühafizə vasitələrindən istifadə qaydaları, fövqəladə hallarda pasiyentlərin təhlükəsiz şəkildə təxliyəsi prosesi barədə geniş məlumat verib, yanğın zamanı zəruri tədbirlər, təhlükəsizliyin təmin olunması üçün davranış qaydaları, ilkin yanğın təhlükəsizliyi qaydalarını və idarə olunması proseslərini ardıcıl şəkildə vizual olaraq izah edib.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında müzakirələr aparılıb və praktiki nümunələr üzərində fikir mübadiləsi həyata keçirilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "OpenAI" "ChatGPT"ni inkişaf etdirməklə illik gəlirini 10 milyard dollara çatdırıb

OpenAI, süni intellekt ChatGPT chatbotunun istifadəyə verilməsindən sonra üç ildən az müddətdə illik gəlirini 10 milyard dollara çatdıra bilib.

"Report" xəbər verir ki, bu barədə şirkət nümayəndəsinə istinadən CNBC məlumat yayıb.

Məbləğ ChatGPT-nin istifadəçi versiyasına, korporativ məhsullara ödənişli abunələrin satışı və üçüncü tərəf xidmətlərinə OpenAI texnologiyalarından istifadə etməyə imkan verən tətbiq proqramlaşdırma interfeysi olan API-yə giriş hesabına formalaşır.

Eyni zamanda, hesablamaya Microsoft-dan lisenziyalaşdırma royaltiləri və birdəfəlik böyük sövdələşmələrdən əldə olunan gəlirlər daxil deyil.

2024-cü ildə OpenAI-nin illik gəliri 5,5 milyard dollar olaraq qiymətləndirilib.

CNBC-nin məlumatına görə, şirkət bu tempə çatmaq üçün təxminən 5 milyard dollar xərcləyib. Bugünkü göstəricilərə görə, OpenAI öz gəlirindən təxminən 30 dəfə çox qiymətləndirilib.

Kanal həmçinin bildirib ki, şirkət 2029-cu ilə qədər gəlirini 125 milyard dollara çatdırmağı planlaşdırıb.

Mart ayının sonuna olan məlumata görə, OpenAI həftəlik 500 milyon aktiv istifadəçi və 3 milyon ödənişli korporativ müştərisi olduğunu bildirib.




Tibbdə PR

## Tibb müəssisələrində cəmiyyət və pasiyentlərlə effektiv kommunikasiya: Müasir PR strategiyaları və rəqəmsal yanaşmalar



*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi*

Səhiyyə sistemində ictimaiyyətlə və pasiyentlərlə düzgün kommunikasiya qurmaq tibb müəssisələrinin uğurunun əsas şərtidir. Xüsusilə də tibbi xidmətlərə ehtiyac duyan insanların etibarını qazanmaq, narahatlıqlarına cavab vermək və onları maarifləndirmək üçün kommunikasiya yalnız texniki bir fəaliyyət deyil – **PR (ictimaiyyətlə əlaqələr)** vasitəsilə həyata keçirilən strateji və etik bir missiyadır.

**1. İctimaiyyətlə əlaqələrin əsasları**

Tibb müəssisələri üçün bu, yalnız reklam və tanıtım deyil, həm də:

**- Cəmiyyətin maarifləndirilməsi;**

**- Etimadın qurulması və qorunması;**

**- Açıq və şəffaf məlumatın təmin edilməsi;**

**- Böhran zamanı məlumatların peşəkar çatdırılması deməkdir.**

**PR prosesinin əsas mərhələləri**:

1. **Araşdırma** – auditoriyanın ehtiyac və gözləntilərini öyrənmək
2. **Planlaşdırma** – məqsədyönlü və ölçülə bilən PR strategiyası hazırlamaq
3. **İcra** – mesajların uyğun kanallarla auditoriyaya çatdırılması
4. **Qiymətləndirmə** – təsirin ölçülməsi və davamlı təkmilləşdirmə

Bu mərhələlər tibb sahəsində **pasiyentlərin ehtiyaclarına uyğun kommunikasiya strategiyalarının** formalaşdırılması üçün əsas təməl rolunu oynayır.

**2. Rəqəmsal Dövrün Qaydaları: Yeni Yanaşma**

PR artıq yalnız mətbuatla münasibət qurmaq deyil – rəsmi veb saytlar, bloqlar, sosial media və e-poçt vasitəsilə birbaşa auditoriya ilə əlaqə qurmaq imkanıdır.

**A. Məzmun mərkəzli kommunikasiya**

Pasiyentlər reklam deyil, problemlərinə cavab verən faydalı və dürüst informasiya axtarırlar.

**Məsələn:**

- *"Yüksək təzyiq zamanı nə etməli?"*
- *"Uşaqlarda qarın ağrısının səbəbləri"*
- *"Cərrahiyyə öncəsi nələrə diqqət etməli?"*

Bu suallara həkimlər tərəfindən hazırlanan məqalə və videolarla cavab verən müəssisə, həm informasiya verir, həm də etibarlı mənbə kimi yadda qalır.

**B. İkitərəfli ünsiyyət və sosial media**

Facebook, Instagram və digər platformalarda izləyicilərlə interaktiv dialoq qurmaq, suallara vaxtında cavab vermək və real hekayələri paylaşmaq – etibarın qurulmasında əvəzsizdir.

**C. Ənənəvi və rəqəmsal kanalların sinxron istifadəsi**

PR strategiyasında həm **ənənəvi** (televiziya, radio, qəzet), həm də rəqəmsal (sosial media, blog, SEO) kanallar birlikdə işləməlidir. Bu, mesajın həm geniş, həm də hədəfli auditoriyalara çatdırılmasını təmin edir.

**3. Tibb Müəssisələri üçün Kommunikasiya Strategiyasının Elementləri**

**Əldə olunan biliklər əsasında tibb müəssisələri üçün təsirli pasiyent və ictimaiyyətlə əlaqə modeli yuxarıdakı şəkildə qurula bilər:**

| Əsas element | Tətbiqi |
|---|---|
| **Hədəf auditoriyanın təhlili** | Yaş qrupu, informasiya davranışı, ehtiyac və gözləntilər araşdırılır |
| **Kontent strategiyası** | Maarifləndirici yazılar, real hekayələr, qısa videolar |
| **Multikanallı kommunikasiya** | Veb sayt + sosial media + TV + çap materialları |
| **Emosional bağ qurmaq** | Xidmət alanların real hekayələrini paylaşmaq |
| **İnteraktivlik** | Şərhlərə cavab, canlı yayınlar, sual-cavab bölmələri |
| **Şəffaflıq və cavabdehlik** | Mübahisəli mövzularda açıq informasiya vermək |
| **Etik yanaşma** | Məlumatın doğruluğu və pasiyent hüquqlarına hörmət |

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası
**TAPDIQ GÜLMƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı
**ŞAHİN EYNULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədova atası
**TAPDIQ GÜLMƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı
**ŞAHİN EYNULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı
**ŞAHİN EYNULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500